Respublika.-2019.- 28 dekabr.-S.8.

# Şair-publisist Həsən Təhməzli yeni kitabı ilə oxucuların görüşünə gəlib




**Şair-publisist Həsən Təhməzlinin oxuculara təqdim edilən nəfis tərtibatlı yeni kitabı - "Döyüşçü-polisin gündəliyi" işıq üzü görüb.**

AZƏRTAC xəbər verir ki, kitab Cəbrayıl rayonunun Xələfli kəndinin müqəddəs yerlərinə, məğrur dağlarına, bənzərsiz bulaqlarına, yurdsevər övladlarına ithaf olunub.

"Döyüşçü-polisin gündəliyi" əsərində Xələfli kəndindən, Qarabağ döyüşlərində iştirak etmiş mərd, yurdsevər oğullarından, bu torpağın yetirdiyi insanlardan bəhs edir.

Kitab rus tarixçisi Vasili Veliçkonun azərbaycanlılar haqqında yazdığı bu sözlərlə açılır: "Azərbaycanlıların nəcib, safqanlı olmaları şübhəsizdir; onlar təbiətən xeyirxah, mərd, alicənab, əqli və əxlaqi inkişafa qabil insanlardır. Onlara, sözsüz ki, dövlətçilik ideyası, özü də hakimiyyətə və qayda-qanuna hörmət təlqin edən dövlətçilik ideyası xasdır..."

Qarabağ uğrunda gedən döyüşlərdə fəal iştirak edən polis polkovnik-leytenantı Mədəd Hümbətalıyevin "Gündəliyi" döyüşlərin necə başlanması, genişlənməsi mənzərəsini yaradırsa - Milli Ordunun zabiti son döyüşə gedərkən atası, hamının yaxşı tanıdığı Hüseyn müəllimə yazaraq əsgər çantasında gəzdirdiyi, şəhid olandan sonra ünvanına - şəhid atasına çatdırılan məktub, gənc, müstəqil Azərbaycanımızın əsgərlərinin vətənpərvərliyini, düşmənə nifrətini, şəhid olmağın şərəfini dərindən anlamağa kömək edir. Ölüm qarşısında onların fikir, düşüncə və arzularını ifadə edir.

İki hissədən və 218 səhifədən ibarət olan kitabda fotoşəkillər də yer alıb.

Nəsillər dəyişəcək, insanlar belə kitablara hər zaman ehtiyac duyacaq. Həsən Təhməzlinin gördüyü bu iş bütün zamanlarda öz aktuallığını saxlayacaq və tədqiqatçıların araşdırmalarında istinad mənbəyinə çevriləcək.

İnanırıq ki, müəllif bundan sonra da dəyərli əsərləri ilə tariximizin qaranlıq səhifələrinə işıq saçacaq və etnik-milli keçmişimizlə bağlı yeni dəyərli əsərlərlə oxucuların görüşünə gələcək.

**AZƏRTAC**